

# Bahar Bərdəlinin nəsri

*Mənzər Niyarlı*
*Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi*

**Keçən əsrin 80-ci illər ədəbi nəslinə mənsub olan Bahar Bərdəlinin yubiley ərəfəsində çap olunan üçcildlik kitabının ikinci cildində onun nəsr əsərləri toplanıb. Burada yazıçının böyüklər üçün əlli, uşaqlar üçün isə on dörd hekayəsi yer alıb. Bu hekayələrin əksəriyyəti oxucularımıza yaxşı tanışdı. Hələ 80-90-cı illər boyu bu əsərlər "Ədəbiyyat və incəsənət" qəzetində, "Azərbaycan" jurnalında çap olunmuş və rəğbətlə qarşılanmışdır.**

İstedadlı qadın yazıçılarımızdan biri olan Bahar xanım incə yumorlu, duzlu, koloritli hekayələri ilə hekayə ustası kimi tanınsa da, 1986-cı ildə yazdığı "Bürkü" povesti ilə daha çox diqqəti cəlb etmişdi. O vaxtlar mərhum yazıçımız Yusif Səmədoğlu povesti yüksək qiymətləndirmiş və baş redaktoru olduğu "Azərbaycan" jurnalında çap etdirmişdi. Əsər nəylə yadda qalıb?, - sualına biz belə cavab verərdik ki, - öz təbiiliyiylə, bələd olduğu insanların, məkanın inandırıcı təsviriylə. Müəllif əsərdəki personajları öz bədii təfəkküründən ustalıqla keçirərək qələmə almış və xalq adət-ənənələrindən, deyimlərindən, bayatılarından, atalar sözlərindən yetərincə istifadə etmişdi.

Baharın povestdə yaratdığı gənc Şəhla müəllimənin simasında biz dövrün neqativ hadisələrinə, özbaşınalıqlarına qarşı etiraz səsini ucaldan bir obraz görürük. Ümumiyyətlə, həyatın gərgin, mürəkkəb hadisələrini, ictimai-sosial düyünlərini əks etdirən bu əsərdə obrazların, surətlərin həyatı, xarakterləri hərtərəfli açılır. Müəllif yaşadığı mühiti öz daxili süzgəcindən keçirtdiyindən bu dəsti-xəttin məhz ona məxsusluğu aydın görünür.

"Məğlubiyyət" povesti 90-cı illərin əvvəllərində baş verən hadisələri əks etdirir. Əsərdəki Jalə müəllimə obrazı da çox maraqlı prototipdir. O, təyinatını uzaq aran kəndində olan bir məktəbə alır. İstədiyi oğlan Tural isə işləmək üçün Azərbaycanın əks tərəfinə - dağ kəndlərinin birinə göndərilir. Bir-birilərini sevən iki gənc ayrı düşürlər. Hər iki gəncin sevgi hisslərini biz onların ancaq bir-birilərinə yazdıqları məktublarından oxuyuruq.

Jalə müəllimənin keçdiyi ömür yolu heç də hamar olmur. O, təkcə dərs deməklə kifayətlənmir, rayonun bütün ictimai işlərində fəal iştirak edir. Qarabağda - Bərdədə, Ağdamda, Xankəndində gedən ilk sinfi, milli qarşıdurmalar onun gözü qarşısında baş verdiyindən Jalə gördüklərini bədii-publisist şəkildə yazıb həm yerli, həm də mərkəzi mətbuatda çap etdirir. Gələcəkdə böyüyəcək Qarabağ müharibəsinin ilk görüntülərini biz bu əsərdən oxuyuruq. Hadisələrin gedişini, axarını çox təbii, sadə, inandırıcı şəkildə əks etdirən bu əsər çox maraqla oxunur. Adından da göründüyü kimi bu zaman kəsiyində məğlubiyyət bütün sahələrdə bir-birinin ardınca baş verir, böyüyür, genişlənirdi. Nəhayət, o, bu ucqar kənddə Jalə dar çərçivəyə sanki sığmır, genişlik axtarır. Ədəbi mühitə yaxın olmaq üçün şəhərə - paytaxta üz tutur, ev kirayələyir, qəzetlərin birində işə düzəlir.

Bahar Bərdəli nəsrimizin zəngin ənənələrinə arxalanıb və bunlardan yetərincə bəhrələnib. O, əsərlərini yazarkən müasir mövzulara müraciət etməsi və ya işlənilmiş mövzulara yeni gözlə baxması ilə fərqlənir. Dövrün qəhrəmanları əsərdə adətən mənəviyyat, milli düşüncə, əxlaq fonunda öz əksini tapdığına görədir ki, zamanın tələbindən doğan mənfi və ya müsbət surətlərin taleyi təkcə fərdin taleyi kimi yox, ümumiləşərək mühitin, cəmiyyətin taleyində mənalana bilir. Jalə çox ağır vaxtda şəhərə gəlir. Bir tərəfdən ağır keçid dövrü, o biri tərəfdən ermənilərin Qarabağda törətdikləri vəhşiliklər, kəndlərin talan edilməsi, dinc əhalinin öz dədə-baba yurdundan qovulması halları baş alıb getməkdə idi. Jalə sevgilisi Turaldan məhəbbətinin sadiqliyi ilə fərqlənir. Bu fədakar qız həm də vətənini sevən, yurdunun təəssübünü çəkən mübariz ruhlu yazıçıdır, şairədir. Hər ikisi eyni şəhərdə yaşasa da Jalə Turalın axtarışına çıxır. Ancaq onu tapa bilmir. Məlum olur ki, Tural şəhərdə evsizliyə, az maaşa, şəraitsizliyə dözməyib yaşlı bir yəhudi qadınla izdivac bağlayaraq İsrailə gedib. Doğrudan da, keçən əsrin 90-cı illərin əvvəllərində Qarabağda qızğın müharibə getdiyi bir vaxtda gənclərin arasında gərgin ictimai mühiti bəhanə edənlər Rusiyaya, başqa xarici ölkələrə axışırdı. Ölkədə xaotik bir vəziyyət yaranmışdı. Gənc Jalə belə bir vəziyyətə də bu neqativ hadisələrə biganə qala bilmir. Ona görə də kəskin, tənqidi məqalələr yazır, gəncləri




mübariz olmağa, silaha sarılmağa, vətəni qorumağa, birliyə çağırır. Və özü də Bakıda qalmaq istəməyərək ön cəbhəyə - artıq başlamış olan müharibəyə gedir.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə sabitliyin bünövrəsi qoyulur və atəşkəs elan edilir. Bahar Bərdəlinin bu dövr üçün tipik olan "Gözlərimdən qan axır" hekayəsi məhz Ulu Öndər Heydər Əliyevə həsr edilib. Müəllif bu hekayədə Ümummilli lider Heydər Əliyevin qaçqın uşaqlarla görüşündən süjet alaraq, parlaq obrazını yarada bilib.

Hekayə millət vəkili, yazıçı, publisist Elmira Axundovanın ön sözü ilə miniatür kitab şəklində nəşr olunmuşdur. Hekayəyə yüksək qiymət verən Elmira xanım yazır: "Bu əsərdə ölkəmizin balaca vətəndaşları ilə keçirilən belə görüşlərin birindən bəhs olunur. B.Bərdəli tanınmış siyasi xadimin keçirdiyi hissləri dəqiqliklə canlandırmışdı. Hekayədə Ümummilli lider Heydər Əliyevin adından səsləndirilən problemlər onu daim narahat edirdi. Müəllif hekayənin sonunda qarşımızda yenidən heç zaman yenilməyən Heydər Əliyev obrazını canlandırır. O, salonda olan uşaqların, əsgərlərin qarşısında şux qaməti ilə dayanır, gülümsəyərək onların rəqsinə tamaşa edir. Çünki inanır; heç zaman aciz qalmayın bu xalq məğlubedilməzdir!"

Vətənpərvərlik mövzusu, Qarabağ faciəsi və bu faciənin konkret insan taleyində, xarakterində əksi Bahar Bərdəlinin nəsrində də əhəmiyyətli yer tutur. Onun hekayələri mövzu rəngarəngliyi ilə diqqəti cəlb edir. "Yanıq Kərəmi", "Girov", "Güllü xalça" hekayələri də Qarabağ hadisələrini əks etdirir. "Yanıq Kərəmi" hekayəsində arvadı erməni olduğu üçün rayondan qovulan raykom katibinin sarsıntılarını müəllif çox ustalıqla qələmə almışdır. Hekayədə tez-tez "Əsli və Kərəm" dastanı xatırlanır. Raykom katibini sarsıdan erməni qızı ilə ailə qurmağının əzabı idimi, yoxsa övladlarının azərbaycanlılara olan nifrəti? Kim idi müqəssir? Anasının xeyr-duası olmadan erməni qızı ilə qurduğu ailə son anda faciəvi şəkildə dağılır. İstər-istəməz Kərəmin faciəsini xatırlayırsan. Anası haqlı imiş. Lakin son peşmançılıq da fayda vermir, heç nəyi bərpa etmək gücündə deyil.

"... Kərəmin yerdə bir topa külü qalmışdı... Əsli ağlaya-ağlaya saçını süpürgə edib külü süpürürdü... Bir anda küldən bir qor qalxdı, onun saçına düşdü və yanmağa başladı... Qız nə qədər çalışdı, onu söndürə bilmədi. Çığırdı, özünü bağlı qapılara, pəncərələrə vurdu. Köməyə gələn olmadı. İnləyə-inləyə yerə çökdü. Yanmalı idi! O da yanıb bir topa kül olmalı idi! Yalnız külləri qarışa, qovuşa bilərdi! Yalnız külləri! Bir də bu yolu kimsə keçməsin deyə!".

"Sənin fəlsəfənə, ağlına qurban olum, xalqım mənim! ... Heyf, gec başa düşdüm səni" - düşünürdü bir rayonun başçısı. Bir erməni qızına görə hər şeyini - vətənini, torpağını, ailəsini itirirdi. Gücü isə heç nəyə çatmırdı.

"Güllü xalça" hekayəsində yataqxanada balaca, rütubətli bir mənzildə məskunlaşan köçkün ailəsinin taleyindən danışılır. Ehtiyacın məngənəsində sıxılan Pəri arvad kreditini ödəyə bilmədiyi üçün əcnəbi bankirə qiymətli, dədə-babadan qalma qədim xalçasını satmalı olur və sanki indi başa düşür ki, nələrini itirib!

"Kişi cibindən çıxardığı pulların arasından bir yüz dollarlıq ayırıb taxtın üstünə atdı. Xalçanı qatladılar, götürüb qapıdan çıxdılar.

Arvad rəngi bilinməyən adyalın üstünə çökdü. Son ümid, son yadigar da getmişdi. Elə bil Qarabağı, o güllü yaylaqları, geniş, al yaşıl həyətini, ikimərtəbəli daş evini bu gün, elə bu saatca itirmişdi.

**Güllü xalça...**
**Kim qaldıra, kim aça...**
**Qurban ollam o kəsə,**
**Bu dərddən bir yol aça!..**
**Qadın indi hönkürürdü..."**

Bəlkə də kredit məsələsi olmasaydı, bankir tez-tez qapını döyməsəydi xalçanı - Ulularının son yadigarını satmazdı.

Yazıçının müstəqillik dövründə yazdığı "Dünya bir pəncərədir", "Çıx yaşıl düzə", "Kəsmə, külək", "Mavi, mavi, mas mavi", "Villa", "Xəyanət" kimi hekayələri müasir günümüzün problemlərindən bəhs edir. Hekayələrin qəhrəmanları müxtəlif vəzifə sahibləridir. Hər kəs həyata öz baxış bucağından yanaşır. Çətinliyi, çatışmazlıqları öz bildiyi kimi həll edir. Bəzən bu cür həll etmələr qarşıdurmaya, haqsızlığa, başqasının haqqını mənimsəməyə gətirib çıxardır.

Müəllif bütün hekayələrinin sonunu həyatın axarına buraxır və düşünür ki, nəticəni qoy ağıllı, diqqətli oxucu özü axtarıb, fikirləşib tapsın.

B.Bərdəli uşaqları da unutmayıb. Onlara duzlu, məzəli hekayələr və maraqlı tapmacalar ərməğan edib, "Bülbülə", "Bacılar", "Qardaşlar", "Tapmaca oyunları", "Bahar necə gəldi", "Hər kəsin öz yuvası" kimi hekayələr bu qəbildəndir. Kiçik və orta yaşlı uşaqlar üçün nəzərdə tutulan bu hekayələr onların bilgilərinin artmasında, maraq dünyasının formalaşmasında mühüm rol oynayacaq nəsr nümunələridir.

**Hər bir yazar öz dövrünün əks-sədasıdır, güzgüsüdür, - deyənlər haqlıdır. Bu mənada Bahar Bərdəli də öz dövrünün hadisələrini, həyat həqiqətlərini, gerçəkliyi nəsrində özünəməxsus, şirin, yumoristik dillə ədəbiyyata gətirərək oxucusuna çatdıra bilib. Biz də bu yolda ona daha böyük yaradıcılıq uğurları, sevincləri diləyirik.**